UOT 94(479.24); UOT 32:93/94

ALİYƏ HACIYEVA
Milli Azərbaycan Tarix Muzeyinin dissertantı,
Azərbaycan Universitetinin müəllimi
ORCID ID: 0009-0004-4972-6125
hajiyeva_aliya04@mail.ru

QARABAĞDA POSTKONFLİKT DÖVRÜNDƏ REGİONAL İNKİŞAF STRATEGİYASI: BÖYÜK QAYIDIŞIN YOL XƏRİTƏSİ

DOI: https://doi.org/10.36719/2708-065X/112/102-108

Məqalədə II Qarabağ müharibəsindən sonra, bölgədəki vəziyyət və həyata keçirilən bərpa, yenidənqurma tədbirləri haqqında araşdırılma aparılmışdır. "Böyük Qayıdış" layihəsinin məğzi, Qarabağda həyata keçirilən bərpa və yenidənqurma tədbirlərinin ardıcıllığı barədə məsələlərə toxunulmuşdur. Müasir dövrdə bölgədə həyata keçirilən zəruri infrastruktur layihələrin bərpası, yeni sosial-iqtisadi infrastruktur layihələrin yaradılması, Qarabağın dayanaqlı inkişafını təmin edəcək və bölgənin Azərbaycan və dünya siyasi, iqtisadi, mədəni və turizm həyatına töhfə verəcək layihələri barədə araşdırılma aparılmışdır. Zəruri infrastruktur layihələrindən biri olan yolların çəkilməsi, xüsusilə "Zəfər yolu"nun tikintisi, "Yaşıl enerji" zonasının yaradılması, bölgədə "Ağıllı kənd" və "Ağıllı şəhər" layihələrinin həyata keçirilməsi, bölgənin həm yerli, həm də beynəlxalq səviyyədə nəqliyyat infrastrukturunu genişləndirmək üçün həyata keçirilən Beynəlxlaq Hava Limanı layihələri: Füzuli, Zəngilan, Laçın layihələri haqqında ətraflı araşdırma aparılmışdır. İlkin mərhələdə bərpa və yenidənqurma prosesi zamanı bölgənin idarəetməsi məsələləri araşdırılmışdır.

Açar sözlər: II Qarabağ müharibəsi, Böyük Qayıdış, bərpa və yenidənqurma, infrastruktur layihələri, "Zəfər yolu", "Ağıllı kənd", "Ağıllı şəhər", "Yaşıl enerji".

Giriş. 27 sentyabr - 10 noyabr 2020-ci il tarixində baş vermiş II Qarabağ müharibəsində Azərbaycanın qələbə qazanmasının ardından, 30 il müddətində işğal altında qalan tarixi torpaqlarımız azad edildi. Qələbədən sonra Azərbaycanın qarşısında artıq yeni hədəflər və perspektivlər formalaşmışdı. Ən önəmli məsələlərdən biri isə illər ərzində düşmən tapdağı altında qalan tarixi Azərbaycan torpaqlarını yenidən bərpa etmək və 30 il müddətində doğma torpaqlarından didərgin düşən xalqımıza qovuşdurmaq idi. İşğaldan azad edilmiş ərazilərə "Böyük Qayıdış" Azərbaycanın 2030-cu ilədək beş milli prioritetindən biri kimi müəyyən olunub. İşğal dövründə bu ərazilərdə bir çox şəhərlər və digər yaşayış məntəqələri dağıdılmış, milli-mədəni irsimiz məhv edilmiş, təbii sərvətlərimiz talan edilmişdir, azərbaycan xalqı və dövləti həm maddi, həm də mənəvi çox böyük itgilərə məruz qalmışdır.

Qarabağda postmüharibə dövrünün prioritetləri: təhlükəsizlik və infrastrukturun yenidən qurulması. Bu prosesi həyata keçirmək üçün isə işğaldan azad edilmiş torpaqlarda bir sıra məsələləri həll etmək vacib idi. İlk növbədə azad edilmiş torpaqlarda müharibə nəticəsində yaranmış dağıntıların aradan qaldırılması, yolların çəkilməsi və torpaqların minalardan təmizlənməsi ən vacib məsələlərdən biri idi, çünki həm işğal müddətində, həmçinin də müharibə dövründə yollar yararsız vəziyyətə salınmışdı. Bərpa prosesinin ilkin mərləsində azad edilmiş ərazilərin yenidən qurulmasında və bu prosesdə iştirak edəcək insanların təhlükəsizliyinin təmin edilməsi ən vacib məsələlərdən biridir. Buna görə də ilk növbədə torpaqların minalardan təmizlənməsi üçün işlər həyata keçirilməyə başlanılmış və hələ də proses davam etdirilir. Təhlükəzisliyin təmin edilməsindən sonrakı əsas məsələ isə orada ən zəruri infrastrukturun qurulması idi; yollar, elektrik, qaz, su, kanalizasiya və s. sistemlərinin yaradılması [8, s.30]. Bu məsələnin həlli ilə bağlı ilk addımlar hələ müharibə bitən kimi ilk günlərdən atılmağa başlanılmışdı. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən 2020-ci il noyabrın 17-də Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun layihələndirilməsi və tikintisi ilə bağlı tədbirlər haqqında Sərəncam imzalamışdı. 7 noyabr 2021-ci ildə isə prezident və xanımı Mehriban Əliyeva yolun açılışında iştirak etmişdilər. Başlanğıcını Hacıqabul-Mincivan-Zəngəzur dəhlizi magistral avtomobil yolundan götürən 101 kilometrlik Zəfər yolu Qarabağın göz bəbəyi olan Şuşa şəhərinə qədər

uzanır. Füzuli, Xocavənd, Xocalı və Şuşa rayonlarının ərazisindən keçməklə inşa edilən Zəfər yolu Füzuli və Şuşa şəhərləri də daxil olmaqla bu rayonların onlarla yaşayış məntəqəsini əhatə edir. "Zəfər yolu" ilə yanaşı azad olunan torpaqlarda bir çox yol layihələrinin həyata keçirilməsi planlaşdırılmışdı: Toğanalı – Kəlbəcər – İstisu avtomobil yolu, Kəlbəcər - Laçın avtomobil yolu, Horadiz – Cəbrayıl – Zəngilan – Ağbənd avtomobil yolu, Füzuli – Hadrut avtomobil yolu layihələri və s. Bu yolların hər biri bizi Qarabağa, mədəniyyətə və inkişafa aparır, ulu öndər Heydər Əliyevin də dediyi kimi "yol - mədəniyyət, iqtisadiyyat, bir sözlə, həyat deməkdir". Yol infrastruktur layihələrinin həyata keçirilməsi tez bir zamanda öz doğma yurdlarına qayıdacaq insanların rahatlığının təmin olunmasına, onlar üçün yüksək səviyyəli həyat və yaşayış standartının yaradılmasına xidmət etməklə yanaşı, həm də Qarabağda həyata keçiriləcək bərpa və yenidənqurma işlərində də prosesi sürətləndirəcəkdir [4; 5].

Sosial-iqtisadi infrastrukturun yenidən qurulması. Növbəti önəmli məsələlərdən biri də təbii ki, sosial-iqtisadi infrastrukturun bərpa olunması idi. Bildiyimiz kimi Qarabağ bölgəsi iqtisadi və resurs cəhətdən olduqca zəngin bir ərazi olmuşdur. Məhz bu baxımdan orada sənaye, kənd təsərrüfatı, turizm kimi sahələrin inkişaf etdirilməsi əsas diqqət mərkəzində duran məsələlərdən biridir. Qarabağda bu sahələrin yenidən qurulması və inkişaf etdirilməsi həm buraya köçürülən əhalinin həyat təminatını yüksəldəcək, onların iş yerləri ilə təmin edilməsinə zəmin yaradacaq, o cümlədən də bölgənin nüfuzunu qaldırmaqla, ərazini yenidən dövlətə qazandıracaq, Azərbaycanın inkişafına təkan verəcək. 2020-ci il 24 noyabr tarixində prezident İlham Əliyev tərəfindən "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahının yaradılması haqqında" sərəncam qəbul edilmişdir [1]. Həmin sərəncama müvafiq olaraq işğaldan azad edilmiş torpaqlarda sosial-iqtisadi, humanitar və digər məsələlərlə bağlı Əlaqələndirmə Qərargahı yaradılmışdır. Qərargahın tərkibində nazirliklərin, komitələrin və aidiyyəti üzrə digər dövlət qurumlarının rəhbərləri təmsil olunur. Qərargahın nəzdində İdarələrarası Mərkəz yaradılmışdır ki, onun məqsədi katiblik və kommunikasiya funksiyasının yerinə yetirilməsi və zəruri analitik-təşkilati dəstək göstərilməsidir. İdarələrarası Mərkəz tərəfindən isə müxtəlif işçi qrupları təşkil edilmişdir. Bu işçi qrupların yaradılmasına isə Azərbaycan Respublikası baş nazirinin müavini Şahin Mustafayev rəhbərlik etdirmişdir. Bu işçi qruplardan biri İdarələrarası Mərkəzin İqtisadi Məsələlər üzrə İşçi Qrupudur ki, bu qrupun məqsədi işğaldan azad edilmiş ərazilərin dayanıqlı iqtisadi inkişafı məsələləri ilə məşğul olmaqdır. Bundan əlavə İdarələrarası Mərkəzin Şəhərsalma məsələləri üzrə İşçi Qrupu da vardır ki, bu qrupun əsas vəzifəsi isə işğaldan azad edilmiş ərazilərin planlaşdırma sənədlərinin hazırlanması, regiondakı yaşayış məntəqələrinin yenidənqurulması, zəruri infrastrukturun yaradılması və s. məsələlərdir. Bunlardan əlavə İşçi qrupun tərkibinə İqtisadiyyat, Əmək və Əhalinin Sosial Müdafiəsi, Kənd Təsərrüfatı, Daxili İşlər, Səhiyyə, Elm və Təhsil nazirlikləri, "Azərenerji" ASC, "Azərişıq" ASC, "Azəriqaz" İstehsalat Birliyi, Avtomobil Yolları Dövlət Agentliyi və digər aidiyyəti qurumlar da daxildir [2; 3; 9].

İşğaldan azad olunmuş ərazilərdə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yaradılması, "ağıllı şəhər", "ağıllı kənd" layihələrinin, "yaşıl texnologiya"ların tətbiqi, beynəlxalq hava limanlarının istifadəyə verilməsi, məktəb, universitet, mədəniyyət mərkəzlərinin açılması, müxtəlif fabriklərin və iş təminatı müəssisələrinin yaradılması inkişafı və bərpanı təmin edəcək sosial-iqtisadi layihələrdəndir. Bu layihələrdən biri də işğaldan azad edilmiş Azərbaycan torpaqlarında "yaşıl enerji" zonasının yaradılması ilə bağlı idi. Layihə ilə əlaqədar olaraq prezident İlham Əliyev tərəfindən 3 may 2021-ci il tarixində "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində "Yaşıl Enerji" zonasının yaradılması ilə bağlı tədbirlər haqqında" sərəncam imzalanmışdır. Qarabağ bölgəsinin bərpaolunan enerji istehsalı ilə bağlı böyük potensialı var. Qarabağın əlverişli coğrafi mövqeyi nəticəsində günəş enerjisi, külək enerjisi, termal su ehtiyatları enerjisi və s. işğaldan azad edilən ərazilərimizin "yaşıl enerji" zonasına çevrilməsində əhəmiyyətli rol oynayacaqdır [15]. Laçın rayonunda Güləbird Su Elektrik Stansiyası, "Suqovuşan-1" və "Suqovuşan-2" stansiyaları, Kəlbəcər və Laçın rayonlarında ermənilər tərəfindən dağıdılmış 30-dan çox su elektrik stansiyasının bərpası, "Ağdam-1" və "Ağdam-2" yarımstansiyalarının tikintisi belə önəmli layihələrdən bir neçəsidir [10]. Ağdam Sənaye Parkının yaradılması, Cəbrayıl və Zəngilanda külək və günəş enerjisi stansiyalarının yaradılması layihələrinin həyata keçirilməsi ilə bağlı görülən ilkin tədbirlər və addımlar da bölgənin inkişafında önəmli rola malikdir. Prezidentin Qarabağ və Şərqi Zəngəzurun yaşıl enerji zonasına çevrilməsi ilə bağlı tapşırığı-

na uyğun olaraq 4 il ərzində 270 MVt gücündə 32 su elektrik stansiyası istismara buraxılıb və 2025-ci ildə isə daha 11 su elektrik stansiyasının açılışı planlaşdırılır. Ümumilikdə isə növbəti illərdə əlavə olaraq 200 MVt-lıq su elektrik stansiyalarının tikilməsi nəzərdə tutulur [11].

Prezident İlham Əliyevin işğaldan azad edilmiş ərazilərin bərpası və yenidən qurulması ilə bağlı özünənməxsus baxışı olub. Belə ki, azad edilmiş ərazilərin ən müasir və ağıllı texnologiyalarla təmin edilməsi hər zaman göz önündə saxlanılmışdır, geriyə qayıdacaq əhalini doğma yurdlarında bütün imkanlarla hər tərəfli təmin edilməsi ən önəmli vəzifədir. Bu məqsədlə həyata keçirilən sosial-iqtisadi layihələrdən biri də "Ağıllı şəhər" və "Ağıllı kənd" layihələridir. Bu layihələrinin əsas məqsədi bütün xidmət və obyektləri vahid bir sistemdə toplamaq və idarə etməkdir. "Ağıllı kənd" layihəsinin ən önəmli məqsədi həm də kənd yerlərində yaşayacaq insanlar üçün ən yüksək və müasir standartların tətbiq olunması ilə onların şəhərlərdə əldə edə biləcəyi bütün imkanlara və xidmətlərə burada rahat şəkildə əldə edilə bilməsinin təmin edilməsidir. Eyni zamanda bu layihə həm də sakinlərə kəndlərdə daha çox gəlir əldə etmə və məşğulluq imkanları əldə etməyə də şərait yaradır. Ölkəmizdə "Ağıllı kənd" konsepsiyasının tətbiq olunması ilə bağlı araşdırma aparılması və pilot layihə həyata keçirilməsi imkanlarının və şəraitinin müəyyən edilməsi Prezident İlham Əliyevin 2020-ci il 27 fevral tarixli sərəncamı ilə təsdiq edilmiş "Açıq hökumətin təşviqinə dair 2020–2022-ci illər üçün Milli Fəaliyyət Planı"nda artıq öz əksini tapmışdır. İlham Əliyev çıxışlarının birində qeyd etmişdir ki: "Bildiyiniz kimi, Davos Ümumdünya İqtisadi Forumunda iştirakım zamanı onlarla şirkətlə görüşlərim olur, onların böyük əksəriyyəti texnoloji şirkətlərdir. Bu görüşlər əsnasında görürəm ki, dünyada hansı yeniliklər var, hansı müsbət inkişaf var və çalışıram ki, o şirkətləri Azərbaycana cəlb edim. Ona görə "ağıllı şəhər", "ağıllı kənd" konsepsiyası işlənməlidir və tətbiq edilməlidir". 2021-ci il aprelin 19-da prezident İlham Əliyev tərəfindən "Ağıllı şəhər" (Smart City) və "Ağıllı kənd" (Smart Village) konsepsiyasının hazırlanması haqqında" sərəncam imzalanıb. Bu yolda ilk addım 2021-ci ilin aprel ayının 26-da atıldı və prezident İlham Əliyev tərəfindən Zəngilan rayonun Ağalı kəndində Azərbaycanda ilk dəfə olaraq tətbiq olunacaq "Ağıllı kənd" layihəsinin təməli atıldı. 2022-ci ilin may ayının 27-də Zəngilan rayonunda Ağalı kəndində "Ağıllı kənd" layihəsinin ilk mərhələsinin açılış mərasimi həyata keçirilib. İyunun ayının 18-də isə kəndə xarici turistlər aparılıb. Açılış mərasimində dövlət başçısı prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva iştirak etmiş və kənddə tamamlanmış işlərlə yaxından tanış olmuşdular [14, s.122].

Qarabağda həyata keçirilən, bölgənin bərpası və yenidənqurulmasında önəmli rol oynayan layihələrdən biri də "Dost Aqropark" layihəsidir. "Dost Aqropark" türk və azərbaycanlı sərmayədarlar tərəfindən Qarabağ və Zəngəzur bölgələrində yaradılan ilk özəl kənd təsərrüfatı kompleksidir. Üç mərhələdə həyata keçirilən layihənin təməli 2021-ci il oktyabrın 26-da Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan tərəfindən qoyulub. Layihənin birinci mərhələsi artıq başa çatdırılmış, digər mərhələlərin də tezliklə bitirilməsi planlaşdırılır. Ağıllı kənd təsərrüfatı texnologiyalarının, sıfır tullantı, bərpaolunan enerji və dayanıqlı kənd təsərrüfatı mexanizmlərinin tətbiq olunması əsas götürülən "Dost Aqropark" ətraf mühitin və təbiətin mühafizəsi ilə yanaşı, halal qida prinsipi ilə fəaliyyət göstərməyi planlaşdırır. Layihə tam başa çatdırıldıqda kompleksdə 500 nəfər işlə təmin olunacaq. Bu da, bölgəyə köçürülən əhalinin iş yerləri ilə təmin edilməsi, ərazinin iqtisadi inkişafını təmin edəcək. Həmçinin bu kompleks Azərbaycanın və Türkiyənin ərzaq təhlükəsizliyinə də mühüm töhfə verəcək [13].

Hava nəqliyyatı infrastrukturunun yenidən qurulması. Qarabağ bölgəsində həyata keçirilən növbəti sosial-iqtisadi əhəmiyyətli layihələrdən biri də hava limanların tikilməsidir. Paytaxt Bakı ilə əlaqələrin daha intevsiv və sürətli olması, yükdaşımaların daha sürətli həyata keçirilməsi, Qarabağın turizm potensialını nəzərə alaraq gələcəkdə bölgəyə həm yerli, həm də xarici turistlərin rahat gedişgəlişini təmin etmək, həmçinin də sənayeninin inkişafı ilə bağlı olaraq məhsulların daşınması istiqamətləri düşünülərək işğaldan azad edilmiş ərazilərdə hava limanlarının tikintisi nəzərdə tutulmuşdu. Qarabağ bölgəsində hava limanının tikintisi üçün ilkin göstərişlər Prezident İlham Əliyev tərəfindən 2021-ci ildən artıq verilməyə başlanılmışdır. Belə ki, 2021-ci il yanvar ayının 14-də Prezident İlham Əliyev tərəfindən Füzulidə Beynəlxalq Hava Limanının təməli qoyuldu. Füzuli Beynəlxalq Hava Limanının tikintisi çox sürətlə başa çatdırıldı və təməlinin qoyulmasının ardından cəmi 8 ay sonra hava limanının tikintisi artıq başa çatdırıldı. 2021-ci il oktyabr ayının 26-da isə Prezident İlham Əliyev və

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan hava limanın açılışını etdilər. Füzulidə işğaldan əvvəl yerli əhəmiyyətli hava limanı fəaliyyət göstərsədə, işğal illərində hava limanı da dağıdılmışdır. Yeni beynəlxalq hava limanı elə köhnə hava limanının yerində tikilmişdi. Qarabağın ilk hava yolunun yenidən bu qədər qısa müddətə tikintisi həm də Azərbaycanın işğaldan azad edilmiş torpaqlarda həyata keçirdiyi bərpa və yenidənqurma layihələrinə göstərdiyi diqqət və marağın bariz nümunəsi olmaqla, həm də dövlətimizin gücünü bir daha göz önünə gətirirdi [12]. 2021-ci ilin aprel ayında Prezident İlham Əliyev tərəfindən Qarabağda növbəti hava limanı Zəngilan Beynəlxalq Hava Limanının təməli atılmışdır. Hava Limanın tikintisi 20 oktyabr 2022- ci ildə yekunlaşmış və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və İlham Əliyev tərəfindən açılışı olmuşdur. Qarabağda açılan ikinci hava limanı olmaqla, Zəngilan Beynəlxalq Hava Limanının tikintisi regionun bərpasında və yenidənqurulmasında vacib bir amil kimi çıxış edir. Belə ki, bu limanın tikintisi və faəliyyəti nəticəsində Zəngilan rayonu və ətraf bölgələrdə bir çox yeni iş yerləri yaradılmışdır. Bu da, həm yerli əhali üçün, həm də bölgənin inkişafı üçün çox böyük iqtisadi faydalar gətirir. Həmçinin bölgənin nəqliyyat infrastrukturunu genişləndirməklə, Azərbaycanın Türkiyə, Rusiya və digər ölkələrlə olan hava nəqliyyatının artırılmasını təmin edir. Qarabağda tikilən üçüncü hava limanı isə Laçın rayonunda yerləşir. Bu hava limanının təməli 2021-ci il avqustun 17-də Prezident və xanımı Mehriban Əliyeva tərəfindən atılmışdır. Hava limanının tikintisi isə 28 may 2025-ci ildə başa çatdırılmışdır və açılış mərasimində Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və İlham Əliyev iştirak etmişdir. Laçın Beynəlxalq Hava Limanı da digər iki hava limanları kimi həm bölgə, həm də dövlətimiz üçün çox böyük əhəmiyyətə malikdir. Bu hava limanı Azərbaycanın dəniz səviyyəsindən ən hündürdə yerləşən aeroportudur. Laçın şəhərindən 30 kilometr, Şuşadan 70 kilometr, Kəlbəcərdən isə 60 kilometr məsafədə yerləşən hava limanı Qarabağ və Şərqi Zəngəzur regionlarının nəqliyyat əlaqələrinin gücləndirilməsində mühüm rol oynamaqla, bölgənin turizm potensialının inkişafına da geniş imkanlar yaradacaq. Coğrafi mövqeyi və əlçatanlığı ilə bu hava limanı bölgənin iqtisadi, sosial və logistik inteqrasiyasını dəstəkləyən əsas nəqliyyat mərkəzinə çevirəcək. Hər üç hava limanın açılışında Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın şəxsən iştirak etməsi, Türkiyənin Azərbaycana olan dəstəyinin bariz nümunəsidir [6].

İşğaldan azad edilmiş ərazilərdə hələ də tikintisi davam etdirilən, təməli qoyulan və tikintisi planlaşdırılan bir çox layihələrin həyata keçirilməsi gözlənilir. Bölgədə sosial-qitisadi infrastruktur layihələrinin yaradılması bərpa və yenidenqurmanın əsas və ən vacib mərlələrindən biridir. Bu proses gələcəkdə də bölgənin dayanıqlı və hərtərəfli inkişafını təmin edəcək.

İdarəetmənin təşkili: xüsusi nümayəndəliklərin rolu. Böyük Qayıdışın növbəti mərlələrindən biri də dağıntılardan təmizlənmiş, bölgəyə köçürülən əhalinin zəruri və sosial-iqtisadi infrastrukturla təminatından sonra, bərpa və yenidənqurulmuş ərazinin idarəetməsinin təmin edilməsi idi. Bu məqsədlə Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 4 fevral tarixli 1280 nömrəli Fərmanı ilə "Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəlikləri haqqında əsasnamə" təsdiq edilib [4]. Bu qərara müvafiq olaraq Xüsusi nümayəndəlik Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi inzibati ərazi vahidində və ya onun hissələrində fəaliyyətini həyata keçirir, onun səlahiyyətləri həmin ərazi ilə məhdudlaşır. Xüsusi nümayəndəliyin fəaliyyətinə daxildir: müvafiq ərazinin müəyyən edilmiş hədəflərə uyğun olaraq inkişafını təmin etmək; müvafiq ərazinin perspektiv inkişafı ilə bağlı hədəflərə nail olunması məqsədilə dövlət orqanlarının (qurumlarının), onların yerli bölmələrinin fəaliyyətini əlaqələndirmək; müvafiq ərazidə mülkiyyətin mühafizəsini, dövlət əmlakından səmərəli istifadəni, habelə sahibkarlıq, şəhərsalma, tikinti və digər sahələrdə fəaliyyətin həyata keçirilməsini təşkil etmək; Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi digər istiqamətlərdə fəaliyyət göstərmək. Azərbaycan Respublikası Prezidentinin 7 iyul 2021-ci il tarixli "Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında" Fərmanına əsasən Qarabağ iqtisadi rayonu (Xankəndi şəhəri, Ağcabədi, Ağdam, Bərdə, Füzuli, Xocalı, Xocavənd, Şuşa və Tərtər rayonları) və Şərqi Zəngəzur iqtisadi rayonu (Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın və Zəngilan rayonları) yaradılmışdır. Azərbaycan Respublikası Prezidentinin 27 yanvar 2021-ci il tarixli Sərəncamı ilə Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi təyin edilmişdir. Prezidentin 2021-ci il 24 may tarixli Sərəncamı ilə Ağdam rayonunun işğaldan azad edilmiş hissəsində Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi təyin edilmişdir. Daha sonra Ağdam rayonunun işğaldan azad edilmiş hissəsində Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsinin səlahiyyət dairəsi genişləndirilmiş və Prezi-

dentin 1 dekabr 2021-ci il tarixli Sərəncamı ilə Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi təyin edilmişdir. Həmçinin Azərbaycan Respublikası Prezidentinin 04 may 2022-ci il tarixli Sərəncamı ilə Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Zəngilan rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi təyin edilmişdir [8, s.70].

Nəticə. Qarabağda həyata keçirilən bərpa və yenidənqurma işləri, əhalinin öz doğma torpaqlarına güvənli, rahat və hərtərəfli yaşamını təmin etməklə qayıdışını həyata keçirmək üçün göstərilən ardıcıllıqla irəliləməsi olduqca mütərəqqi haldır. Dövlətimizin bu məsələyə necə böyük diqqət və maraqla yanaşdığını göstərir. Prosesin bu ardıcıllıqla həyata keçirilməsi növbəti mərhələdə bölgəyə olan xarici marağı da artırır. Belə ki, ilkin mərhələdən etibarən bir çox xarici dövlətlərin investorları Azərbaycana bərpa və yenidənqurma prosesində həyata keçirilən layihələrdə yaxından dəstək vermişdir. Onların bu prosesdə yaxından iştirak etməsi gələcəkdə bölgəyə və Azərbaycana başqa xarici dövlətlərin investor və şirlətlərinin, o cümlədən bir sıra təşkilat, qurumlar və turistlərin cəlb edilməsində də mühüm rol oynayacaq. Gözlənilən haldır ki, sadaladığımız ardıcıllıqla həyata keçirilən işlər Qarabağın artıq yaxın bir neçə il ərzində tamamilə ölkəyə və dünyaya qazandırılmasını təmin edəcəkdir.

ƏDƏBİYYAT

1. "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. Bakı şəhəri, 24 noyabr 2020-ci il, № 2303.
2. “Qarabağ İqtisadi Rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti” publik hüquqi şəxsin yaradılması və fəaliyyətinin təmin edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakı şəhəri, 21 iyul 2022-ci il, №1757
3. “Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti” publik hüquqi şəxsin yaradılması və fəaliyyətinin təmin edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakı şəhəri, 21 iyul 2022-ci il, №1756
4. Fərid Mustafayev. Zəfər yolu / AMEA veb saytı, 05.11.2021. - https://science.gov.az/az/news/open/18658 İstinad tarixi: 27.05.2025.
5. Prezident İlham Əliyev: “Bu yol bizi Qarabağın tacı olan Şuşa şəhərinə aparır” / SİA.az, 7 iyun 2022. - https://sia.az/az/news/politics/959910.html İstinad tarixi: 27.05.2025.
6. İlham Əliyev və bizinci xanım Mehriban Əliyeva Zəfər yolunun açılışında iştirak ediblər / Azərbaycan Respublikasının Prezidentinin rəsmi saytı, 07 noyabr 2021. - https://president.az/az/articles/view/54040 İstinad tarixi: 27.05.2025.
7. Laçın Beynəlxalq Hava Limanının açılış mərasimi keçirilib / Azərbaycan Respublikasının Prezidentinin rəsmi saytı, 28 may 2025. - https://president.az/az/articles/view/68996 İstinad tarixi: 31.05.2025.
8. Yeni Qarabağnamə: Qarabağ və Zəngəzur iqtisadi rayonlarında post-konflikt quruculuğu. Bakı, “Azprint” nəşriyyatı, 2022, 217 s. - https://ereforms.gov.az/files/publications/pdf/az/8226f3dc583b89d44916662e95de892c.pdf İstinad tarixi: 31.05.2025.
9. Qarabağda sosial, humanitar, iqtisadi və ifrasturkur məsələlərin həlli üçün işçi qrup yaradılıb / APA.az, 23 sentyabr 2023. - https://apa.az/az/daxili-siyaset/qarabagda-sosial-humanitar-iqtisadi-ve-infrastruktur-meselelerinin-helli-meqsedile-isci-qrup-yaradilib-787165?ysclid=mbc1sn7qq5912507881 İstinad tarixi: 31.05.2025.
10. Qarabağda yenidənqurma: iqtisadi və sosial inkişafın yeni hədəfləri / Yeni Çağ Media qrup, 02 may 2025. - https://yenicag.az/qarabagda-yenidenqurma-iqtisadi-ve-sosial-inkisafin-yeni-hedefleri?ysclid=mbc23zo0xd577229785 İstinad tarixi: 31.05.2025.
11. 2025-ci ildə Qarabağ və Şərqi Zəngəzurda infrastruktur layihələri genişlənəcək / 07 fevral 2025. - https://icma.az/news/2025-ci-ilde-qarabag-ve-serqi-zengezurda-infrastruktur-layiheleri-genislenecek-482721?ysclid=mbc2b0rj4c308905823 İstinad tarixi: 31.05.2025.

12. Qarabağın ilk “hava qapısı”nın qürurlu bir ili / Azərbaycan qəzeti, 26 oktyabr 2022. - https://azerbaijan-news.az/az/posts/detail/qarabagin-ilk-hava-qapisinin-qururlu-bir-ili-1666731873/271322 İstinad tarixi: 31.05.2025.
13. Qarabağda həyata keçirilən layihələrdə iştirak üçün 1500-dən çox şirkət müraciət edib / 1News.az, 28.08.2023. - https://1news.az/az/news/20230828055423407-Qarabagda-heyata-kechirilen-layihelerde-ishtirak-uchun-1500-den-chox-shirket-muraciet-edib İstinad tarixi: 31.05.2025.
14. Hacıyeva A. “Qarabağda ilk Ağıllı kənd modelinin qurulması: Ağalı kəndi”. Azərbaycan Universiteti, Cənubi Qafqaz yeni qlobal çağırışlar kontekstində beynəlxalq konfrans materilları. - Bakı: “Azərbaycan”. - 2024. – s. 122-124.
15. Hacıyeva A. “Qarabağın yaşıl enerji zonasına çevrilməsində türk şirkətlərinin rolu”. AMEA Qafqazşünaslıq İnstitutu, Cənubi Qafqaz: Mövcud vəziyyət və perspektivlər, respublika elmi konfrans materialları.Tezislər. – Bakı: “Aspoliqraf”. – 2023. – s. 106-107.

АЛИЯ А.ГАДЖИЕВА
Диссертант Национального музея истории Азербайджана,
преподаватель Азербайджанского университета

СТРАТЕГИЯ РЕГИОНАЛЬНОГО РАЗВИТИЯ В ПОСТКОНФЛИКТНЫЙ ПЕРИОД В КАРАБАХЕ: ДОРОЖНАЯ КАРТА ВЕЛИКОГО ВОЗВРАЩЕНИЯ

В данной статье рассматривается ситуация в регионе после Второй Карабахской войны, а также реализуемые меры по восстановлению и реконструкции в послеконфликтный период. Особое внимание уделяется сущности проекта «Великое Возвращение» и последовательности осуществляемых мероприятий по восстановлению и реконструкции в Карабахе. Также анализируются усилия по восстановлению ключевых инфраструктурных объектов, созданию новых социально-экономических проектов и реализации инициатив, направленных на обеспечение устойчивого развития Карабаха, а также на его интеграцию в политическую, экономическую, культурную и туристическую жизнь Азербайджана и мира в целом.Среди основных инфраструктурных мероприятий рассматриваются строительство дорог, в частности стратегической «Дороги Победы», создание зоны «Зеленой энергетики», реализация проектов «Умная деревня» и «Умный город». В статье также подробно анализируются проекты международных аэропортов - Физули, Зангелан и Лачин - направленные на расширение транспортной инфраструктуры региона как на национальном, так и на международном уровне. Дополнительно исследуются вопросы управления и административной организации на начальном этапе процесса восстановления и реконструкции на освобожденных территориях.

Ключевые слова: Вторая Карабахская война, “Великое Возвращение”, восстановление и реконструкция, инфраструктурные проекты, «Дорога Победы», «Умная деревня», «Умный город», «Зелёная энергетика».

ALIYA HAJIYEVA
Doctoral student at the National Museum of History of Azerbaijan,
Lecturer at the University of Azerbaijan

REGIONAL DEVELOPMENT STRATEGY IN THE POST-CONFLICT PERIOD IN KARABAKH: THE ROADMAP OF THE GREAT RETURN

The article examines the situation in the region following the Second Karabakh War, as well as the reconstruction and rehabilitation measures implemented in the post-conflict period. It addresses the essence of the “Great Return” project and discusses the sequence of reconstruction and rehabilita-

tion initiatives carried out in Karabakh. The study also explores the restoration of essential infrastructure projects in the modern era, the development of new socio-economic infrastructure, and the implementation of initiatives aimed at ensuring the sustainable development of Karabakh, contributing to Azerbaijan's political, economic, cultural, and tourism integration both regionally and globally.Among the key infrastructure efforts, the article analyzes road construction - including the strategic "Victory Road" - the establishment of a "Green Energy" zone, and the implementation of "Smart Village" and "Smart City" projects in the region. A detailed examination is also provided of international airport projects (Fuzuli, Zangilan, and Lachin), which aim to expand the region's transportation infrastructure on both national and international levels. Additionally, the article investigates governance and administrative management issues during the initial phase of the reconstruction and rehabilitation process in the liberated territories.

Keywords: Second Karabakh War, "Great Return", reconstruction and restoration, infrastructure projects, "Victory Road", "Smart Village", "Smart City", "Green Energy".

Məqalənin redaksiyaya daxil olduğu tarix: 10 dekabr 2025-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 29 yanvar 2026-cı il.
Rəyçilər: t.e.d. Qabil Əliyev, t.e.d. İbrahim Zeynalov.